**Mehriban İlqar gızı ƏLİYEVA**

# YENİYETMƏLİK DÖVRÜNDƏ MEYDANA ÇIXAN SOSİAL-PSİXOLOJİ PROBLEMLƏRİN TƏSVİRİ

**Xülasə**

Yeniyetməlik dövrünün sosial-psixoloji problemləri valideynlərin, psixoloqların, sosial işçi və pedaqoqların daimi olaraq diqqətdə saxlamalı olduqları məsələlərdən biridir. Yeniyetməlik dövründə baş verən fizioloji və mənəvi dəyişikliklər, ətraf-mühitin təsiri yeniyetmələrin hərəkət və davranışlarının bilavasitə formalaşmasının əsasını təşkil edir. Buna görə də, yeniyetmələrlə ünsiyyətdə olarkən, daimi olaraq onların maraq, istək və fikirləri nəzərə alınmalı, onların yeni formalaşmağa başlayan şəxsi-mənəvi keyfiyyətlərinin sərhədləri müəyyən olunmaqla dəstəklənməlidir.

**Açar sözlər:** yeniyetmə, psixoloji, problem, yaşlı, valideyn

**DOI:** doi.org/10.54414/HMKB9637

**Giriş**

Müasir qloballaşan dünyada gedən mənəvi, iqtisadi, siyasi və sosial proseslər bəşər həyatının bütün sahələrində olduğu kimi, uşaq, yeniyetmə və gənclərin həyatında da ciddi dəyişikliklərlə müşayiət olunur. Yad mədəniyyətlərin doğmalaşması, onların təsirinin genişlənməsi, inteqrasiya proseslərinin sürətlənməsi cəmiyyətdə dəyərlər sisteminin məzmununa əsaslı olaraq təsir edir, gənc nəslin tərbiyəsi və təlimi məsələlərinin həyata keçirilməsinə maneə törədən yeni problemlər yaranmış olur.

Yeniyetməlik yaşı dövründə hisslər güclü təzahür etmiş olur: onlarda adətən çılğınlıq, tündxasiyyətlilik, hövsələsizlik müşahidə olunur. Bir qisim yeniyetmələrin özlərini cilovlaya bilməməsi, davranış və rəftarlarında kobudluq və kəskinlik, özünənəzarətin zəifliyi bununla əlaqədardır.

Yeniyetmənin neqativliyi çox vaxt ədalətsizlikdən, yorğunluqdan, kollektiv və yoldaşlarının mənfi rəftarından yaranır. Yeniyetməlik neqativizmini çox zaman yaşın "böhranı" kimi də qeyd edirlər. Real olaraq isə, bunu yaşın çətinlikləri kimi qeyd etmək daha düzgün olar.

Yeniyetmənin əxlaqı və mənlik şüurunda gedən dəyişikliklər onun psixi simasında yeni bir əlamətin – "yaşlılıq hissi və meyli"nin əmələ gəlməsinə gətirib çıxarır. "Yaşlılıq hissi" yeniyetmə şəxsiyyətinin əsas cəhəti, əlamətidir. O, yeniyetmənin yeni sosial mövqeyini, dinləyici uşaq əxlaqından yaşlıların bərabər -hüquqlu əxlaqına keçidi, yaşlılar aləminə sürətlə və bərabərhüquqlu üzv kimi daxil olmağı əks etdirir. Yeniyetmədə şəxsi ləyaqət hissini qorumaq və təsdiq etmək cəhdləri güclənir.

**Əsas mətn**

Professor Ə.Ə.Əlizadəyə görə, yeniyetməlik yaşı dövründə "yaşlılıq hissi" nin formalaşmasının başlıca mənbəyi birbaşa cinsi yetişkənliklə əlaqəli deyil. Hətta yaşlılıq hissi cinsi yetişmənin başlanmasına kimi də ortaya çıxa bilər, yəni mənşəcə tamamilə sosial mahiyyətli ola bilər.

"Yaşlılıq hissi" yeniyetmənin aktiv surətdə ətrafdakıların onu yaşlı adam, böyük kimi qəbul etmələrinə istiqamətlənmiş davamlı cəhdlərində, söz və rəftarlarında öz əksini tapır. Həqiqətən də 13-15 yaşlı yeniyetmələrin bu nəticəyə gəlmək üçün müəyyən obyektiv əsasları olur: boy, cinsi yetişmə və çəki artımının nəticəsi olan ictimai həyata fəal müdaxilə, xarici dəyişkənliklər, əldə edilmiş müvəffəqiyyətlərə əsasən yaşlıların rəğbətinə malik olma onların davranışında başlıca meyara çevrilir.

Yeniyetmələrin özünü yaşlı adam kimi aparma hissi və meyli onun həyatının müxtəlif sahələrində öz əksini tapır. Ailə həyatında yeniyetmə yaşlı adam kimi iştirak edir, kiçik məktəb yaşı dövründən fərqli olaraq, biliklərə sərbəst şəkildə yiyələnməyə başlayır; onların oğlan və qızlarla romantik əlaqələrində də bu xüsusiyyət açıq şəkildə görünür.

Böyükləri təqlid etmə (yamsılama) yolu ilə yaşlılar aləminə daxil olmağa çalışan yeniyet-

mələr elə onlar kimi saç düzəltdirməyə, geyinməyə, dəbdə olan paltar almağa meyl edir, makiyaja, kosmetik vasitələrə maraq edir, əl çantası, güzgü, daraq gəzdirirlər. Həqiqətdə isə yaşlılığın bütün sirlərini ilk vaxtlar yeniyetmələr elə xarici görkəmin cizgilərində axtarırlar. Yeniyetmə qızlarda “qadın”, oğlanlarda isə “kişi” etalonu və potensial rolun nümunəsi kimi görünür. Onların rəftar və davranışında müvafiq rolun daşıyıcı xüsusiyyətləri, sərvət meylləri formalaşmağa başlayır.

Yeniyetmələrin bir qismində (xüsusilə oğlanlarda) təlimə olan maraq getdikcə azalır. Onlar arasında bəzən qanunpozma, intizamsızlıq halları nəzərə çarpır. Bu da, adətən, ailələrdə qeyri-normal tərbiyə mühiti ilə, münaqişə və konfliktlərlə, yeniyetmə nəzarətsizliyi, onların mənfi küçə təsirinə məruz qalması ilə (narkomaniya, xuliqanlıq, sərxoşluq, oğurluq və s.) əlaqəlidir.

Yeniyetmələrin əsas problemlərindən biri valideynlərlə qarşılıqlı münasibətdə əmələ gələn anlaşılmazlıqlardır. Bu dövrdə yeniyetmələrdə uşaqlıq asılılığından qurtulmaq və valideynlərlə qarşılıqlı inam, rəğbət, etibar və s. kimi münasibətlərə keçməyə ehtiyac ortaya çıxır. Valideynlər isə əksinə, inkişaf edən bu cür bərabərliyə meylli olmurlar.

Artıq yeniyetmə valideyndən uzaqlaşma, onların səhvlərini tapmaq, zəifliklərinin fərqinə varmağa və yoldaşlarına daha çox yönəlməyə başlayır. Bu yerdə də valideynlərin fobiyaları baş qaldırır. Övladlarının düzgün olmayan dostluqlar yaradaraq yanlış istiqamətə yönəlməsi, narkotik və alkoqol istifadə riski, aqressiv rəftarların artması, dərs, iş davranışında problemlərin ortaya çıxması və akademik həyata maraqsız yanaşma kimi narahat edən hallar özünü göstərir.

Yeniyetmə şəxsiyyətinin təəssüf yaradan xüsusiyyəti özünü onda göstərir ki, o, hələ də bu hazırlığı reallaşdırmaq qabiliyyətində deyildir, sadəcə olaraq, təlim fəaliyyətinin yeni formalarının icra üslublarına yiyələnmiş olur. Şagirdi bu üslublara yiyələndirmək, onda dərin maraq doğurmaq müəllimin qarşısında dayanan ən vacib vəzifələrdən biridir. Burada müəllim belə bir çətinliklə də qarşılaşır, bütün qeyd olunan əlamətlər davamsız xüsusiyyət kəsb edir, hələ formalaşma və yaranma mərhələsində olur, bu isə istər kiçik yeniyetməlik, istərsə də böyük reallaşdırmağı tələb edir.

Valideynləri və müəllimləri ilə daha çox mübahisələr yaşayan yeniyetmələr üçün ən arzuolunmaz hal onu tənqid etməkdir. Yetkin insanların yeniyetməlik yaşı dövründə olan övladını anlayıb güzəştə getməsi olduqca çətin olur. Bu baxımdan da onlar yeniyetməni dəyişmək üçün tənqid etməyə başlayırlar. Elə düşünürlər ki, tənqiddə xeyir var. Ancaq valideynin bu yaş dövründə olan övladını tənqid etməsi onları hər gün bir az da valideyndən kənarlaşdırır və yadlaşdırır.Yeniyetmə bu vaxt daha təhlükəli olur. Ailədən uzaqlaşan yeniyetmələr kənar destruktiv qruplara meyl edirlər ki, bu da onların mənfi vərdişlərə yiyələnməsi ilə nəticələnir.

Yeniyetməlik yaşı dövründə ortaya çıxan düşünmə qabiliyyətinin dəstəklənilməsi lazım olan bir cəhətdir. Cavan məntiq icra etməyi, plan qurmağı, sorğulamağı, başqalarının görüş bucağını anlamağı bu yolla inkişaf etdirəcəkdir. Buna görə ana və ataların gəncin yeni inkişaf edən bacarığını dəstəkləməsi lazımdır.

Əgər yaşlıların yeniyetmə ilə ünsiyyətində mürəkkəblik aydın şəkildə nəzərə çarpırsa, onda bu, hər şeydən əvvəl, uşaqların müstəqil olmağa can atmaqları ilə əlaqələndirilir. Bu, aysberqin yalnız görünə bilən hissəsidir. Həqiqətdə isə, yeniyetməlik yaşı dövründə valideynlərlə uşaqlar arasında olan yaş distansiyası (məsafəsi) ilə bağlı olaraq “nəsillər” konflikti (münaqişəsi) güclənir. Bütün bunlardan belə bir qənaətə gəlmək olar ki, yeniyetməlik yaşı, sadəcə olaraq məktəb həyatının müəyyən bir dövrü deyildir. Məktəblinin gələcək həyatının kökləri yəqin ki, bu yaş dövrünə təsadüf etməyə başlayır. Qız və oğlanlar yeniyetməlik yaşı dövründə yeni bir mühitə daxil olurlar. Bu vaxt yeniyetmə üçün var olan ətraf aləmdə hüdudsuz bir dünya yaranmış olur.

Bildirmək lazımdır ki, yaşlıların yeniyetmələrlə olan sosial-psixoloji mövzularda disputları da olduqca böyük tərbiyəvi önəm daşıyır. Yaşlıların ictimai hadisələrə göstərdikləri maraq və verdikləri dəyərlər əslində onlar üçün vətəndaşlıq dərsidir.

Psixoloji tədqiqatlar göstərir ki, yaşlıların heç də hamısı bu imkanlardan eyni səviyyədə istifadə edə bilmirlər. Ancaq bir xüsusiyyət də

şübhəsizdir ki, valideyn-yeniyetmə arasında olan qarşılıqlı əlaqələr nə qədər səmərəli olarsa, onların şəxsiyyətinin formalaşması da bir o qədər düzgün istiqamətdə gedə bilər.

Uğursuz olan ailələrdə valideynlər arasında qeyri-səmimi münasibətin kəskin şəkildə olması, küsülülük, söz-söhbət, dava-dalaş övladı unutdurur, o, tez-tez acılanır, şiddət görür. Ata ilə ana, ana ilə nənə arasında olan qeyri-səmimi münasibətlər gələcək vətəndaşı çıxılmaz vəziyyətdə qoyur. Ailədə qayğı görməyən yeniyetmə öz aləminə qapılır, söz eşitmir və kobud olur. Yeniyetmənin bu davranışı getdikcə sabit xüsusiyyətdə olur. Bu cür yeniyetmələrin tərbiyəsi çətinləşir, yeniyetmə öz üzərində nəzarətin zəiflədiyini görüb, kənar təsirlərə inanır. Yeniyetmə övladı olan ailələrdə çox vaxt valideynlərin ünsiyyət zamanı pis sözlər deməsi, işlətməsi yeniyetmənin inkişafına mənfi təsir edir. Uşaqların yeniyetməlik yaşı dövründə bu pis sözlər onların nitqində ən çox işlənən sözlərə çevrilir və onların böyük qismi elə düşünür ki, yalnız bu yolla əsl kişi olmaq mümkündür. Bu baxımdan da valideynlər işlətdikləri sözlərə diqqət etməli və nəlayiq sözlərdən uzaq olmalıdırlar. Unutmaq olmaz ki, onlar bizim məsləhətlərimizdən çox işlətdiyimiz ifadələri və etdiyimiz hərəkətləri nümunə götürürlər.

Yeniyetmələrin düzgün tərbiyəsi ona ehtiyac duyur ki, yeniyetmələr ilə yaşlı-uşaq münasibəti deyil, yaşlı-yaşlı münasibəti kimi təşkil olunsun. Müşahidələr göstərir ki, yaşlılar yeniyetmələrlə öz əvvəlki münasibətlərini dəyişmirlərsə, bu vaxt böyük narazılıqlar yarana bilir. Bu münasibətlər aşağıdakı şəkildə ola bilər:

1.Valideyn yeniyetmə ilə öz münasibətini dəyişmir və bu vaxt yeniyetmə ilə arasında olan çətinliklər getdikcə çoxalır, ziddiyyətlər dayanmadan artır. Bu da yeniyetmənin ciddi etirazlarına səbəb ola bilir. O, söz dinləmir, müqavimət göstərir və s.

2. Valideyn yeniyetmə təzyiqinin təsiri ilə spesifik görüşlərinə zidd olaraq əvvəllər icazə vermədiklərinə sonra icazə verir. Ancaq valideyn belə hərəkətlərində heç ardıcıllıq nümayiş etdirmir. Bu vaxt yeniyetmə və valideyn arasında ziddiyyətlərin sayı bir az azalsa da, təzədən olduqda, valideynlər pis halda qalır. Yeniyetmələr bir neçə dəfə onun keçən dəfə verdiyi qərara əsasən günahlandırır və növbəti güzəştə nail ola bilir.

Bildirək ki, hadisələrin belə gedişi heç də xoşagələn hal deyil. Burada mənfi cəhət odur ki, yeniyetmə nəyi edə bilər, nəyi edə bilməz barədə bilikləri nə yeniyetmə, nə də valideyn doğru formada dərk edə bilmir.

3. Ən doğru davranış yolu: Valideynlər müəyyən müddət keçəndən sonra yeniyetməni daha uşaq hesab etmirlər. Bir dəfə onunla hesablaşır və davranış üslublarını uyğun şəkildə dəyişirlər. Nəyə icazə olar, nəyə icazə olmaz bunu planlaşdırırlar və sabit düşüncəli olaraq onu yerinə yetirirlər. Bu cür olduqda çətinliklər dəf edilir. Yeniyetmə və valideyn arasında olan ziddiyyətlərin olmamasına üçün valideyn və müəllimlər yeniyetmə şəxsiyyətinə, onun sosial mövqeyinə, şəxsi ləyaqətinə, mənliyinə hörmət hissi ilə yanaşmağı bilməlidirlər.

Psixoloqların fikrinə görə, məktəb nevrozlarına daha çox, elə, yeniyetməlik dövründə təsadüf olunur. Bəzən belə hallar yeniyetmənin məktəb, pis qiymətlər üçün qorxusu, imtahanlar ərəfəsində həyəcanı və küyə düşməsi, müəllimlər, valideynlər, ümumi şəkildə, yaşlılarla kobudluğu məktəb nevrozlarının təzahürləridir.

Modern (müasir) məktəblilər arasında ən çox geniş yayılmaqda olan emosional stress halları onların ümidsizliyə düçar olması, müvəffəqiyyətsiz ailədə böyümək və rifah səviyyəsinin aşağı olması, valideynlərinin cəmiyyətdə sosial mövqeyinin itirilməsi və ya cinayət məsuliyyətinə cəlb olunması onun yaşlılar və yaşıdlar arasında istehza obyekti olmasına, fiziki cəhətdən şikəstlik və yaxud xarici eybərcərlik, ən əziz, ən doğma olan yaxınını itirmə, yaşlıların cəzasından qorxu, ümumi halda, talenin qəfil zərbəsi kimi törəyir.

Emosional stress gərgin psixoloji nailiyyətdir. O, uzun müddət, bəzən isə aylarla davam edə bilir, ruhi sarsıntı, psixoloji qəm-qüssə formasında özünü göstərir.

Müasir dövrdə fövqəladə situasiyalar stressin əmələ gəlməsinə gətirib çıxaran səbəblər cərgəsinə daxil edilir ki, bunlara da stressorlar deyilir. Bütün bunlar heç, şübhəsiz ən əsas faktordan – fobiyadan törəyir. Daim təkrar olunan stresslər, məktəblilərdə xroniki emosional gər-

ginliklər, hormonal stress keçirən yeniyetmələrin psixikasında nəzərə çarpan patoloji hallar psixi enerji potensialının tükənməsi ilə əlaqəli olaraq gərginlik, emosional kasıblıq, küskünlük, laqeydlik, ünsiyyətsizlik, qaşqabaqlılıq, ümidsizlik, arzu və istəklərin yoxluğu, tənhalıq, fəaliyyətsizlik, bəzən də motivləşmiş aqressiv kobudluqdur. Bütün bu kimi hallar ünsiyyət defekti, yəni ünsiyyət ehtiyacının təmin olunması, yeniyetməyə qayğı, nəvaziş və mehribanlığın olmaması ilə əlaqəli olaraq yaranır. Belə yeniyetmələr donuq gorunüşdə olurlar. Ətrafdakı hər şey onlara solğun donuq görünüşdə görünür. Uşağın psixi həyatında istər verbal, istərsə də ekspressiv-emosional əlaqələrin zəif olması sosial əhatədə qeyri-formal psixoloji iqlim onların normal psixi inkişafına mənfi təsir edir.

Böyük Ukrayna pedaqoqu V.A.Suxomlinski yeniyetməlik yaşı dövrünü "vətəndaş doğulması" dövrü adlandırmışdır. O yazırdı: " Yeniyetməlik illərinə daxil olmaq elə bil insanın üçüncü dəfə doğulmasıdır" Birinci dəfə canlı varlıq, ikinci dəfə vətəndaş, artıq təkcə ətraf aləmi deyil, həmçinin özünü görən, fəal düşünən, fəallıq göstərən şəxsiyyət doğulur.

Yeniyetməlik yaşı dövrü insan yaşamının ən mənalı günlərindən hesab edilir. Elə bu baxımdan bu dövrdə sağlam ailə, təhsil, sevgi və s. mövzular ətrafında fikirlər formalaşır. Bu dövr hər iki cins üçün çətindir. İlkin duyğularda qeyri-sabitlik yaranır. Bu da mühitdən asılı olaraq dəyişir.

Həyata yeni addımlayan bəzi yeniyetmələr ətrafdakılara münasibətdə problemlər yaşayırlar. Bu cəhətdən valideynlər yetkinlik dövrünə xüsusi diqqət etməlidirlər. Övladlarına uşaq vaxtlarından düzgün tərbiyə verilməlidir. İnsanın ən həssas dövrü elə yeniyetməlik yaşı dövrüdür. Buraya böyüümə, cinsi, ictimai və romantik mənada inkişaf daxildir.

Yeniyetməlik yaşı dövründə valideynlərlə qarşılıqlı münasibətdə olan problemlər əsas problemlərdən biri kimi diqqəti cəlb edir. Bu dövrdə onlarda uşaq düşüncəsindən qurtulmağa və valideynlərlə qarşılıqlı hörmət, inam, etibar və s. kimi münasibətlərə keçməyə ehtiyac hissi ortaya çıxır. Ancaq yeniyetmələr inkişafa meylli olan bərabərliyə maraqlı deyildirlər. Misal olaraq, elə valideynlər vardır ki, məktəbdə uşaqlarının qiymətlərini özləri yazdırırlar. Geyim seçməkdə belə onlara azadlıq şansı vermirlər. "Sən heç nə bacarmırsan", "Səndən heç bir şey olmaz", "İşə yaramırsan" və s. kimi sözlər ilə yeniyetmələrin özlərinə olan inamlarını məhv edirlər. Bu atmosferdə böyüyən yeniyetmələr, əlbəttə ki, gələcəkdə də daim valideynlərini rəqib kimi görürlər və onlara qarşı yarışda olurlar. Təbii ki, bunu valideyn-övlad arasında gərginliklərin meydana çıxmasının başlanğıc səbəblərindən biri olaraq qeyd etmək olar.

Cəmiyyətdə qəbul edilmiş hüquqi, mənəvi və sosial standartların və normaların pozulmasının səbəblərinə və onların yox edilməsi problemlərinə artan narahatlıq və diqqət pedaqogika, psixologiya, sosiologiya, korreksiyaedici və sosial elmlərin qovuşuğunda "deviantologiya" adlanan yeni elm sahəsinin yaranmasına gətirib çıxarmış, "davranış qüsurları" anlayışı yerinə "deviant"(anormal), "addiktiv"(asılı, aludə),"delikvient"(zərif) davranış terminləri daha geniş işlənməyə başlamışdır.

Uşaq və yeniyetmələrdə davranış qüsurlarının və yaxud müasir terminlərlə ifadə etsək, "deviant", "delikvient" və "addiktiv" davranışın müxtəlif təzahürlərinin ortaya çıxması psixoloji, sosial-pedaqoji və psixofizioloji olmaqla kompleks səbəblərlə əlaqəlidir.

Çağdaş elmi təsəvvürlərə əsasən yeniyetmələrdə davranış nöqsanlarının səbəbləri içərisində sosial və psixoloji problemlər aparıcı yerdə durur. Hüquqi və əxlaqi şüurun formalaşdırılmasında buraxılan səhvlər, şəxsiyyətin tələbatlarının məzmunu, xarakteri, cəhətləri, uşaq və yeniyetmədə nəzərə çarpan ciddi psixi pozğunluqlar, ailənin, bütövlükdə cəmiyyətin uşaq və yeniyetmələrə münasibətinin xarakteri və s. kimi faktorları onlarda davranış nöqsanlarının meydana gəlməsinə səbəb ola bilən başlıca faktorlar kimi dəyərləndirmək olar.

Artıq hamıya məlumdur ki, yeniyetməlik və ilkin gənclik yaşı dövrləri sosial-psixoloji cəhətdən ən çətin və mürəkkəb dövrlər sayılır. Bu baxımdan da bu yaş dövrlərinin hər birində sinir-psixi pozğunluqlar arasında "deviantlıq" və yaxud davranış pozğunluğu sindromu əsas yerdə dayanır. Bu cür davranış bəzən alkoqol və müxtəlif toksik tərkibli maddələrdən istifadə ilə

müşayiət edilir. Bir neçə psixoloji ədəbiyyatlarda bu cür asılılığa səbəb olan davranış pozğunluğu "addiktiv davranış" adlandırılır.

Hər bir insanı asılı həyat sürməyə məcbur edən addiktiv davranış mexanizmlərinin kökləri uşaqlıq yaş dövrləri, ailə tərbiyəsinin cəhətləri ilə əlaqədardır. Evdə, valideynlərin mühitində yeniyetmə şəxsiyyətlərarası münasibətlərin və emosional əlaqələrin "dilini" öyrənir. Əgər uşaq valideynlərindən dəstək, emosional istilik görmürsə, o zaman psixoloji müdafiəsizlik hissi ortaya çıxır. Uşaq böyüdükcə, bu hiss onun həyatda qarşılaşdığı insanlara köçürülür və yaranmış diskomfort yeniyetmə və gəncləri aktivliyi artıran, süni komfort və eyforiya vəziyyəti əmələ gətirən müxtəlif maddələrdən istifadəyə təhrik edir. Bu, əvvəlcə yeniyetmə və gənclərdə ilk sınaqlardan başlanır, sonda faciəvi sonluqla bitir, yəni tam asılı davranış tipinə dönür.

Rus sosioloqu Y.Qlinskinin gəldiyi nəticəyə əsasən, yeniyetməlik yaşı dövründə olan oğlanların 75%-nin alkoqolla tanışlığı var və belə içkilərin "dadını" bilirlər.

Addiktiv davranış deyən zaman yeniyetmə və gənclərin bir və yaxud bir neçə kimyəvi tərkibli birləşmələrdən istifadəsi və bu əsasda onlarda şüurun vəziyyətinin dəyişilməsinə və asılılığa səbəb olan patoloji reaksiyalarının yaranması başa düşülür. Yeniyetmə və gənclərin alkoqol, siqaret, narkotika və taksikoloji tərkibli maddələrdən istifadəsi, həmçinin qumar və kompüter oyunlarına hədsiz dərəcədə aludəçiliyi zamanı onlarda ifadəli patopsixoloji pozğunluqlar nəzərə çarpmasa da "Mən" obrazında və motivasiya sahəsində müəyyən dəyişikliklərin, xüsusilə, asılılıq vəziyyətinin yaranması barədə tutarlı elmi nəticələr mövcuddur.

**Məqalənin elmi yeniliyi.** Məqalədə yeniyetməlik dövrünün sosial-psixoloji problemləri hərtərəfli araşdırılmışdır.

**Məqalənin praktiki əhəmiyyəti və tətbiqi.** Məqalədən əldə olunan nəticələr psixoloqlar,

pedaqoqlar, sosioloqlar və sosial işçilər tərəfindən yeniyetmələrin sosial-psixoloji problemlərinin hərtərəfli öyrənilməsi üçün istifadə oluna bilər.

## Nəticə

Deviant davranış yeniyetmələrin cəmiyyətin ümumi qəbul olunmuş normalarına əks (zidd) olan hər hansı bir hərəkətidir. Bioloji quruluş, psixoloji səbəblər və sosial faktorlar da daxil olmaqla, bir insanın deviant davranışına nəyin səbəb olduğuna dair bir çox müxtəlif nəzəriyyələr vardır.

Bioloji konsepsiyalar cinayət və bu kimi hərəkətləri patoloji faktorların nəticəsi kimi dəyərləndirir. Bu, müəyyən bir qrup insanlara məxsus xəstəlik hesab olunur. Bəzi fərziyyələrə əsasən, cinayətkarlar sonradan meydana çıxıb əmələ gəlmir, cinayətkar anadan olur. Bu cür insanlar bioloji cəhətdən də normal, günahsız adamdan fərqli olurlar. Burada əsas məntiq ondan ibarətdir ki, bu şəxslər fiziki və əqli cəhətdən geri qalmışlar və bu bioloji geriləmə sosial qaydaları dərk etməmə və onlara əməl etməmə kimi bir sıra çətinliklər yaradır. Bu da öz növbəsində kriminal davranışlara gətirib çıxarır.

Deviant davranışı şərtləndirən aşağıdakı faktorları ayırmaq mümkündür:

1) Sosial faktorlar: Evdə və məktəbdən kənar əhatədə yeniyetməyə həmyaşıdlar qruplarının (qeyri-formal), küçənin, kollektivin göstərdiyi arzuolunmaz təsirlər sistemi.

2) Pedoqoji-psixoloji faktorlar: Yeniyetmələrin ailə tərbiyəsində yol verilən qüsurlar və nöqsanlar, təlim-tərbiyə müəssisələrində uşaqların, yeniyetmə və gənclərin tərbiyəsində ortaya çıxan problemlər buna aid edilə bilər.

3) Fərdi psixoloji faktorlar: Qeyri-sosial davranışa və cəmiyyətə zidd təkan verən ilk təbii psixoloji meyarlar, şəxsi sərvət meylləri davranışın özünütənzim mexanizmləri, fərdin sosial standartlara mənfi əlaqəsini inkişaf etdirən psixoloji əlamətlər.

Hüquqa zidd (Delikvent) davranışın araşdırılması maraq yaradan və çox yönlü bir sahədir. Adı çəkilən davranışı izah edən aşağıdakı konsepsiyalar nəzərə çarpır. Bu konsepsiyalar hüquqa zidd davranışın bəzi psixoloji mexanizmlərini, müxtəlif formalarını və s. əlamətlərini daha geniş formada əhatə edir.

Deviant davranış barədə olan müxtəlif nəzəriyyələr sırasında yaradıcısı Ziqmund Freyd olan psixoanalitik meylli araşdırmalar böyük önəm daşıyır. Psixoanalizdə pozuntuların başlıca mənbəyini "O" nun quruluşunu təşkil edən şüursuz meyllərlə "Mən" və "Fövqəl – Mən" dən çıxış edən məhdudiyyətlər arasında olan uzun müddətli konflikt təşkil edir. Şəxsiyyətin

normal inkişafı şüur və şüursuzluq sahələrini tarazlaşdıran optimal müdafiə mexanizmlərinin üzə çıxmasını özündə əks etdirir. O, həmçinin irəli sürmüşdür ki, libido hər bir yaradıcılıq prosesində çıxış axtarır; hər bir şəxs daim azadlıq və özünütəsdiqetməyə səy göstərir. Ancaq azadlıq mədəniyyətin inkişafı ilə birlikdə məhdudlaşır. Libidonun sıxışdırılıb çıxarılması, boğulması seksual enerjinin sublimasiyasına, davranışın sadizm və cinayətə kimi dəyişməsinə səbəb olur.

Neofreydistlər deviant davranışın xüsusiyyətini başqa davranış pozuntuları ilə – nevrozlar, seksual pozuntular, sayıqlama halları, psixasteniyalar, şəxsiyyətin sosial dezadaptasiyasının müxtəlif formaları ilə bərabər olaraq təhlil edirlər. Psixoanalitik təhlil və tədqiqatlarda xüsusi olaraq zorakılıq cinayətinin ilkin səbəbi hesab olunan aqressivliyin xüsusiyyətinə verilir. Aqressiv enerjini anadangəlmə dərk olunmayan meyllər oyaq hala gətirir: Freyddə bu libidodur; Adlerdə hakimiyyətə, digərləri üzərində üstünlüyə meyl; E. Frommda ölümə, əzab çəkməyə mazoxistliyə meyl; V.Şutsda yaxın ətrafdan bəyənilmə və tərəfdaş olmadır. Ancaq sonra aparılan araşdırmalar sübut etdi ki, deviant davranışın anlamını ancaq psixoloji faktorların təhlili sayəsində üzə çıxarmaq olmaz.

B.Skinner, E.Torndayk, D.Uotson biheyviorizm və neo-biheyviorizmin nümayəndələri olmuşlar. Onlar qeyd etmişlər ki, sosial mühit insanın rəftarını tam şəkildə müəyyənləşdirir: insan öyrənmə sayəsində təcrübə qazanmış olur, onun rəftarının nəticəsi onun təkrarlanıb-təkrarlanmaması ehtimalını ortaya qoyur.

Bu baxımdan da xarici möhkəmlənmələr istər lider, istərsə də deviant davranışlı insanın davranışının formasını dəyişmiş olur. Ancaq həyat tərzinin proqramlaşdırılması barədə elm süqut etdi. Adətən o, şəxsiyyətin özünüdərki və özünüinkişafı ilə konflikt münasibətində olur.

Yeniyetmənin davranışında olan pozuntuları humanistik yanaşma onun hissləri ilə uyğunluq təşkil etməsinin və itirməsinin nəticəsi olaraq gözdən keçirir. Hazırki tərbiyə prosesində özünütəsdiqləmənin mümkün olmaması özünü göstərir. Bu yanaşmada aqressiya yeniyetmələrə qarşı olan qəddarlığın nəticəsi kimi ön plana çəkilir. Burada aqressiya sosiallaşma prosesinin təhrif olunması və valideyn cəzalarının son nəticəsi olaraq qeyd edilir.

Yeniyetməlik sosial-psixoloji problemlərin meydana çıxdığı bir dövr olduğundan bu dövrdə yaranan çətinliklərin, narahatlıqların aradan qaldırılması üçün psixoloqlar, valideynlər, pedaqoqlar və ümumilikdə uşağın daxil olduğu məktəb kollektivi birlikdə işləməli və yeniyetmənin fikrini daim nəzərə alaraq, ona müəyyən edilmiş sərhədlər daxilində müstəqillik verməyi bacarmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Ağayev Ə.Ə., Rzayeva Y.T., Hüseynova T.M., Vahabova T.Ə. Sosial Pedaqoqika. Bakı:Elm və təhsil,2006, (203 s.)
2. Bayramov Ə.S. Psixologiya. Bakı: Maarif, 2002, (102 s.)
3. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: 2003. (280 s.)
4. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-çap, 2003, (413 s.)
5. Çələbiyev N.Z. Uşaq psixologiyası, Bakı: Sosial elmlər, 2000, (165 s.)
6. Əzimli Q. E. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı: Elm və təhsil, 2006, (155 s.)
7. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Səda, 2003, (175 s.)

**Мехрибан Ильгар кызы АЛИЕВА**

## ОПИСАНИЕ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИХ ПРОБЛЕМ ВОЗНИКАЮЩИХ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

**Резюме**

Социально-психологические проблемы подросткового возраста являются одним из вопросов, которые всегда должны иметь в виду родители, психологи, социальные работники и педагоги. Физиологические и духовные изменения, происходящие в подростковом возрасте, влияние окружающей среды являются основой для непосредственного формирования действий и поведения подростков. Поэтому при общении с подростками следует учитывать их интересы, пожелания и мнения, поддерживать вновь сформировавшиеся личностно-нравственные качества путем определения их границ.

**Ключевые слова:** подросток, психологический, проблема, пожилой, родитель

**Mehriban ILgar ALIYEVA**

## DESCRIPTION OF SOCIO-PSYCHOLOGICAL PROBLEMS THAT APPEAR DURING ADOLESCENCE

**Summary**

Socio-psychological problems of adolescence are one of the issues that parents, psychologists, social workers, and educators should always keep in mind. Physiological and spiritual changes that occur during adolescence, and the influence of the environment are the basis for the direct formation of actions and behaviors of adolescents. Therefore, when communicating with teenagers, their interests, wishes, and opinions should be constantly taken into account, and their newly formed personal and moral qualities should be supported by defining their boundaries.

**Keywords:** adolescent, psychological, problem, elderly, parent

**Daxil olub:** 18.10.2022